**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **MAY 2014**
**KORPORATİV, DÖVLƏT İDARƏETMƏ, VERGİ VƏ GÖMRÜK**

## KORPORATİV QEYDİYYAT, E-HÖKUMƏT, VERGİ HESABATLARI VƏ İDXAL

### Korporativ Qeydiyyat Məlumatlarının Yeniləndirməməsinə görə Məsuliyyət

İnzibati Xətalar Məcəlləsinə digər məsələlərlə birlikdə şirkət və təşkilatların korporativ qeydlərinin saxlanmasını tənzim edən dəyişikliklər 4 fevral 2014-cü il tarixindən qüvvəyə minmişdir.

Dəyişikliklərə əsasən, hüquqi şəxslərin dövlət qeydiyyatı üçün zəruri olan məlumatları təqdim etməməsi inzibati məsuliyyətə gətirib-çıxara bilər. Hüquqi şəxslərin, habelə xarici dövlətlərin hüquqi şəxslərinin Azərbaycandakı filial və nümayəndəliklərinin təsis sənədlərində edilmiş dəyişikliklərin və bu qurumlara dair qeydə alınmış faktların sonrakı dəyişikliyinin qeydiyyata alınması üçün Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri haqqında Qanunla müəyyən edilmiş müddətdə və qaydada müvafiq icra hakimiyyəti orqanına müraciət olunmamasına görə vəzifəli şəxslər 1.000 manatdan 2.000 manatadək miqdarda, hüquqi şəxslər 2.500 manatdan 3.000 manatadək miqdarda cərimə edilir.

Vergi Məcəlləsində göstərilən müddətlərdə vergi orqanında uçota alınmaq və ya olduğu yer, yaxud yaşadığı yerin dəyişməsi barədə ərizənin verilməməsinə, həmçinin digər uçot məlumatlarında (vergi ödəyicisinin vergi uçotuna alınma haqqında ərizədə qeyd olunan rekvizitlər) dəyişiklik haqqında məlumatın təqdim edilməməsinə görə 40 manat məbləğində maliyyə sanksiyası Vergi Məcəlləsinə əsasən vergi ödəyicilərinə (hüquqi və fiziki şəxslər) qarşı tətbiq edilməkdə davam edir.

Korporativ qeydlərin yenilənmiş saxlanmasına görə yeni qəbul edilmiş inzibati məsuliyyətlə bərabər ləğv olunan hüquqi şəxsin kreditorların tələblərini yerinə yetirmək qabiliyyətinə dair ictimaiyyəti yanıltmasına görə qəbul edilmiş məsuliyyətdir. Ləğvetmə zamanı bilə-bilə yalandan hüquqi şəxsin bütün kreditorlarının tələblərini qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatın qəbul edilməsinə görə vəzifəli şəxslər 1.000 manat miqdarında cərimə edilir.

### Hökumət tərəfindən Elektron Xidmətlərin Siyahısı Genişlənib

Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən elektron xidmət növlərinin Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 saylı Qərarına əsasən təsdiqlənmiş siyahısı yenə Nazirlər Kabinetinin 2014-cü il 16 aprel tarixli 105 saylı Qərarı əsasında aşağıdakıları daxil edərək genişlənib:

– dövlət əmlakının icarəyə verilməsi müqavilələri üzrə icarə haqqı borcu barədə məlumatın verilməsi;
– servitutun dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;
– servitutun dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu;
– daşınmaz əmlakla bağlı uzufruktun dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu;
– daşınmaz əmlakla bağlı uzufruktun dövlət qeydiyyatının ləğvi üçün müraciətin və sənədlərin qəbulu;
– məhv olmuş daşınmaz əmlakın və onun üzərindəki hüquqların dövlət qeydiyyatının ləğvi; və
– daşınmaz əmlak obyekti barədə daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsi (daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi istisna olmaqla).

**Xüsusi Rejimlərə əsasən Vergi Hesabatlarının Verilməsi**

Azərbaycan Respublikasının 789-IVQD saylı 2013-cü il 29 oktyabr tarixli (19 noyabr 2013-cü ildən qüvvəyə minib) Qanunu ilə xüsusi rejimlərə əsasən fəaliyyət göstərən fiziki şəxslər və vergi ödəyicilərinin vəzifəli şəxsləri vergi hesabatlarını vermədiklərinə görə inzibati məsuliyyətin subyektləri olmuşlar. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, əsas ixrac boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər çərçivəsində fəaliyyət üzrə vergi hesabatlarının əsas olmadan müəyyən edilən müddətdə müvafiq icra hakimiyyəti orqanına təqdim edilməməsinə (həmin sazişlərdə başqa qaydalar nəzərdə tutulduğu hallar istisna olmaqla) görə fiziki şəxslər 25 manatdan 30 manatadək miqdarda, vəzifəli şəxslər 40 manatdan 60 manatadək miqdarda cərimə edilir.

Bundan əvvəl, İnzibati Xətalar Məcəlləsinin 247-ci Maddəsi vergi və digər məcburi ödənişlərin hesablanma və ödənilməsi üçün sənədlərin təqdim etməməsinə görə fiziki şəxs vergi ödəyicisi və vəzifəli şəxslərin inzibati məsuliyyətini nəzərdə tuturdu. Belə başa düşürük ki, dəyişiklik Hökumətin Azərbaycanın ümumən tətbiq edilən qanunvericiliyindən adətən üstün tutulan xüsusi rejim əsasında işləyən vergi ödəyicilərinin vergi qanunvericiliyinə əməl etməsini inzibati məsuliyyətin tətbiqi vasitəsilə təmin etmək məqsədilə qəbul edilib.

**İdxal**

Nazirlər Kabinetinin 2014-cü il 25 aprel tarixli 112 və 113 saylı Qərarları idxal rüsumu və əlavə dəyər vergisi (ƏDV) dərəcələrini təsdiq edən Nazirlər Kabinetinin Qərarlarına dəyişiklik edib. Alternativ və bərpa olunan enerji mənbələri üzrə fəaliyyətinə xüsusi icazə verilmiş şəxslər, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin təsdiqedici sənədləri və xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə Siyahı əsasında alternativ və bərpa olunan enerji və ondan səmərəli istifadə edilməsi sahəsində tətbiq olunan qurğular, onların istehsalı üçün avadanlıqların hissə və ləvazimatları gömrük rüsumları və ƏDV-dən azad olunmaqla idxal edə bilər. Qərarlar 1 iyun 2014-cü il tarixində qüvvəyə minir və on il müddətində qüvvədə qalır.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2014 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.